*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 137-143*
https://doi.org/10.62837/2024.3.137

**GÜLÖYŞƏ ƏHMƏDZADƏ**
***ADPU, Üzeyir Hacıbəyov 68***
**gulu010894@gmail.com**

# MONOLOJİ İSTİQAMƏTDƏ ƏMR CÜMLƏSİNİN MÜRƏKKƏB STRUKTURLARI

## XÜLASƏ

Monoloji istiqamətdə əmr cümləsinin mürəkkəb strukturlarının müəyyənləşdirilməsi, tabesiz və tabeli mürəkkəb formalarında təzahür etməsini tədqiq etmək Azərbaycan dilinin sintaktik sistemi üçün olduqca əhəmiyyətli məsələlərdən biridir. Ona görə də çağdaş nəsr mətnlərində işlənən külli miqdarda əmr cümlələrinin mürəkkəb quruluşlarını izləmək və hansı morfoloji kateqoriyaların imkanları hesabına yaranıb formalaşdığını müəyyən etmək lazım gəlir. Azərbaycan dilçiliyinə aid əsərlərdə əmr cümlələrinin mürəkkəb strukturlarına demək olar ki, az toxunulmuş və ötəri elmi-nəzəri fikirlər söylənilmişdir. Əmr cümləsinin tədqiqi bütün zamanlarda sadə cümlə tipləri üzrə tədqiq edilmiş, onlar üçün səciyyəvi olan mürəkkəb strukturlar unudulmuş, geniş və ya məhdud qrammatik-semantikləşməsi məsələsi nəzərə alınmamışdır. Bu sintaktik əlamətləri sadə cümlələrlə mürəkkəb strukturdan olan sintaktik vahidlərlə qarşılaşdırdıqda aydın şəkildə görürük ki, məqalədə bu məsələlər çözülür.

**Açar sözlər:** morfoloji nitq, sintaktik kateqoriyalar, morfoloji göstəricilər, əmr cümləsi, tabesiz mürəkkəb strukturu, tabeli mürəkkəb quruluşları.

**Guloysha Ahmadzadeh**

# COMPLEX STRUCTURES OF IMPERATIVE SENTENCES IN MONOLOGICAL DIRECTION

## SUMMARY

Identifying the complex structures of the imperative sentences in the monologue direction, studying its manifestation in subordinate and subordinate complex forms is one of the most important issues for the syntactic system of the Azerbaijani language. Therefore, it is necessary to follow the complex structures of a large number of imperative sentences used in modern prose texts and to determine which morphological categories formed due to their possibilities. In the works related to Azerbaijani linguistics, the complex structures of imperative sentences are hardly touched upon, and therefore scientific-theoretical opinions are uttered. The study of imperative sentences has always been studied on simple sentence types, the complex structures typical for them have been forgotten, the wide issue or limited

grammatical-semantics has not been taken into account. When comparing these syntactic features with simple sentences and syntactic units of complex structure, we clearly see that these issues are resolved in this article.
**Keywords**: morphological speech, syntactic categories, morphological indicators, command sentence, subordinate complex structure, subordinate complex structures.

**Гюлойша Ахмадзаде**

## СЛОЖНЫЕ КОНСТРУКЦИИ КОМАНДНОГО ПРЕДЛОЖЕНИЯ МОНОЛОИЧЕСКОГО НАПРАВЛЕНИЯ
## РЕЗЮМЕ

Выявление сложных структур повелительного предложения в монологическом направлении, изучение его проявления в придаточных и подчинительных сложных формах является одним из важнейших вопросов для синтаксической системы Азербайджанского языка. Поэтому необходимо проследить сложную структуру большого количества повелительных предложений, используемых в современных прозаических текстах, и определить, какие морфологические категории сформировались благодаря их возможностям. В работах, связанных с азербайджанским языкознанием, сложные конструкции повелительных предложений почти не затрагиваются, в связи с чем высказываются научно-теоретические мнения. Изучение повелительных предложений всегда изучалось на простых типах предложений, забывались типичные для них сложные конструкции, не учитывался вопрос о широкой или ограниченной грамматико-семантизации. Когда мы сравниваем эти синтаксические особенности с простыми предложениями и синтаксическими единицами сложной структуры, мы ясно видим, что эти вопросы решены в статье.
**Ключевые слова**: морфологическая речь, синтаксические категории, морфологические показатели, повелительное предложение, придаточная сложная структура, придаточные сложные конструкции.

**Annotasiya**. Məqalədə nəsr mətnlərinin monoloji nitq aktlarında əmr cümləsinin mürəkkəb strukturundan bəhs olunur.

Monoloji nitqdə əmr cümləsinin mürəkkəb strukturlarının öyrənilməsi Azərbaycan sintaktik sisteminin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Əmr cümlələrinin mürəkkəb strukturları monoloji nitqdə özlərini təzahür etdirən ən universal (kontekstual şəraitdə) bədii keyfiyyət göstəricilərindən biri olub, bu cür keyfiyyət qazanaraq intensiv fəaliyyət göstərir. Qrammatik formalaşma baxımından əmr cümləsinin xüsusi morfoloji göstəricisi olmadığına görə, o feilin bütün şəkillərində intonasiyanın köməyi sayəsində formalaşdırıla bilər və mürəkkəb cümlə

strukturları da yarada bilmə imkanları ilə də səciyyələnir. Nəsr mətnlərinin monoloji nitq aktlarında tabeli mürəkkəb cümlələrlə müqayisədə kəmiyyətcə tabesiz mürəkkəb strukturdan olan sintaktik konstruksiyaların azlığı özünü göstərir. Məsələn: *Murtuz yorğan-döşəyə sığınmış halda fikirləşirdi: – ermənilər düşünsün, daşınsın, götür-qoy etsinlər, sonrakı peşmançılıqları onlara heç bir şey verməyəcəkdir*! (2, 53)

Bu tabesiz mürəkkəb cümlə 4 hissədən ibarət olub sadalama intonasiyası əsasında qurulmuş, əmr məzmunu III şəxsin tək və cəm şəkilçiləri vasitəsilə qabarıqlaşdırılmışdır. Tabesiz mürəkkəb cümlədə "gərək" ədatının ellipsisləşməsi aydın nəzərə çarpır: "gərək düşünsün, daşınsın, etsinlər". "Ellipsisləşmiş, lakin təsəvvürdə bərpası mümkünsüzləşən "gərək" ədatı cümlə birləşməsinə vaciblik çaları versə də, əmr şəkli bu varisliyi zəiflətməkdən onu bir qədər də artırmış və qətilik çaları ifadə edən qrammatik vasitə rolunu oynamışdır" (1,319). Bu tabesiz mürəkkəb cümlə strukturunda 3 sadə cümlə tipi əmr intonasiyası ilə tələffüz edilməklə ardıcıl zamanlılıq məna əlaqəsi yaratmış, çünki hadisələr sadalama yolu ilə nəql olunmuş, ardıcıl zaman kəsiyində faktlar ifadə edilmişdir. Tərkib hissələrinin hər birinə ayrı-ayrılıqda "indi" determinant zaman zərfliyini də əlavə etməklə də onların ardıcılzamanlılıq əlaqəsi əsasında qurulmasını üzə çıxarmaq olar: *indi düşünsün; indi danışsın; indi etsinlər*. Məqsəd və intonasiyaya görə cümlənin bütün növlərini əmr məzmununda tələffüz etməklə əmr cümlə modelində funksionallaşdırmaq mümkündür, lakin bunların çoxu dialektoloji nitq üçün səciyyəvi olsa da, monoloji istiqamət üçün bir o qədər də xarakterik deyildir. Məsələn: *Mənsur bəy bu gecə öldürülsün, tikə-tikə doğransın, tikələri qurda-quşa yem olsun! – İsgəndər bu düşüncələri ilə yatağından qalxdı* (3,41). Obrazın daxili düşüncələrinin bir parçası olan bu tabesiz mürəkkəb cümlə 3 tərkibdən ibarətdir və tərkiblərdəki müxtəlif faktlar və hadisələr bir obyekt ətrafında (*Mənsurun öldürülməsi*) cəmləşdirilmişdir və cəmləşdirilən fakt və hadisələr sadalama yolu ilə həmcins şəkildə (*öldürülsün, doğransın, olsun*) ardıcıllıqla düzüldüyünə görə ardıcıllıq məna əlaqəsini özündə gerçəkləşdirmişdir.

Qrammatik forma, eləcə də onun ifadə etdiyi məzmun müxtəlif vasitələrlə kontekstual vəziyyətin tələbinə, danışanın istəyinə uyğun funksiya yerinə yetirir. Məlumdur ki, morfoloji və sintaktik aspektlərdə xəbərin əmr şəklinin məna çaları, arzu çaları ilə bəzi hallarda sinonimlik təşkil edir və elə olur ki, onları bir-birindən ayırd etmək çətinləşir. Ə.Abdullayev doğru olaraq yazır: "Bu formaların bir-birinin yerində işlənməsi o birilərdən seçilir. Hətta I şəxsin cəmində bu formalar eyni bir morfoloji əlamətlə ifadə olunur. Arzu və əmr mənası I şəxs cəmdə yalnız kontekstdə, şifahi nitqdə isə xüsusi hərəkət və intonasiya vasitəsilə ayırd edilir. Lakin bütün bunlar, əmr və arzu şəkli arasındakı ümumi cəhətlər onları qətiyyən eyniləşdirmir" (4, 158). Əmr formasının arzu mənası ifadə edən arzu əlavə məzmunu da əksər hallarda strukturca tabeli mürəkkəb cümlə tərkibində özünü göstərir. Belə vəziyyədə

arzu mənasının yaranmasına ümumi mətndən daha çox, baş cümlədə işlənən müəyyən leksik vahid təsir edir. Bu forma ilə ifadə olunan arzu şəkli arzu mənasının əsas məzmumundan iki cəhətdən fərqlənir. Birincisi, əmr forması ilə ifadə olunan arzu mənası öz dərəcəsi etibarilə üstün olur. İkincisi, belə arzu adətən keçmiş zamana aid olur və bu keçmişlik baş cümlənin xəbəri ilə müəyyənləşir. Məs: *Bu gün Nəci istəyirdi ki, Təzə Həsənlidən xeyli aralıda, neçə-neçə kənd-kəssəyi bir-birinə calayan el yolunun kənarında otursun, tütüək çalsın, gəlib gedən yüklü dəvələrə baxsın, atlı-alaqlı yolçulara tamaşa etsin* (5, 46); *Nəci istəyirdi ki, tezliklə məktəb yaşına çatsın, o da uşaqlara qoşulub məktəbə getsin, yaxşı oxusun* (5,50).

Bu sintaktik bütövlərin hər ikisində baş cümlə əvvəldə budaq cünlə sonra gələrək bir-birinə "ki" bağlayıcısı vasitəsilə əlaqələnmiş və burada cümlələrindəki əmr – arzu çalarının qovuşuq şəkildə təsəvvür etməsinə baş cümlədə çıxış edən "istəyirdi" xəbəri səbəb olmuş, beləliklə də, tamamlıq budaq cümləsi modelində sintaktik vahid yaranmışdır. Monoloji nitqdə bu tip əmr-arzu qovuşuq tabeli mürəkkəb cümlə çoxluq təşkil edir və bu cümlənin feili xəbəri arzu semantikalı sözlərlə ifadə olunmuş tabeli mürəkkəb cümlələrdə budaq cümlənin feili xəbəri, bir qayda olaraq əmr şəklinin III şəxsi ilə, az da olsa I şəxslə formalaşır və ümumi cümlə arzu məzmunu bildirir. Arzu çaları baş cümlənin əmr çaları ilə budaq cümlədə şəxs sonluqları vasitəsilə hökmə çevrilir.

Monoloji nitq aktlarında xəbərin əmr forması ilə vacib şəkli əksər məqamlarda kontekstual şəraitlə bağlı olaraq bir-birinə sinonim variantlar kimi işlənir və tabesiz mürəkkəb quruluşunda olur. Bu tip mürəkkəb strukturda vacib forması konkret şəxs sonluğu qəbul etmədən əmr mənası bildirdikdə, bir qayda olaraq, tərəddüd, çarəsizlik, çağırış çaları ifadə edir. Məs: *Nəci keyləşmiş vəziyyətdə düşünürdü: "hara getməli, necə getməli, nə etməli?"* (5, 39); İ*ndi başıma haranın külünü tökməli, haranın daşını vurmalı?* (5, 42).

Bu tabesiz mürəkkəb cümlələrdə vacib formasının şəxs sonluqsuz ifadə etdiyi əmr mənası üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, bu forma sual məzmunu yaratmaqla bərabər, şəxs sonluqlu formadan fərqli olaraq prosesi qabarıq şəkildə nəzərə çapdırır. Tabesiz mürəkkəb cümlə tərkibləri eynizamanlılıq məna əlaqəsi əsasında intişar tapır. Eyni zamanda tabesiz mürəkkəb cümlənin tərkibləri şəxs sonluqları olmadan çıxış etdiyinə görə əmr mənası konkret şəxsi deyil, ümumi şəxsə aid olması onu ümumi cümlə kimi də səciyyələndirməyə əsas verir və bu, kontekstən də asanlıqla məlum olur.

Monoloji şəraitdə əmr və arzu formalarının semantikası bir-birinə çox yaxın paradiqmalarda çıxış edir, lakin onların məna çalarında oxşarlıqlar olsa da, kəskin və ya cüzi fərqliliklər də özünü göstərir: M.Rəhimov da düzgün olaraq göstərir ki, lakin bu, heç də onları tam eyniləşdirməyə və ya onlar arasında tam bərabərlik işarəsi qoymağa haqq vermir. Çünki bunların bəzən oxşar mənaları ifadə

etməsi ümumiyyətlə, əmr şəkli ilə arzu şəkli arasında qrammatik məna yaxınlığı ilə əlaqədardır. Lakin bir kateqoriya kimi hər iki şəklin bütün şəxslərdə özünəməxsus ifadə forması olduğu kimi, hərəsinin də öz işlənmə dairəsi, öz semantik müstəqilliyi vardır" (6, 10). Əmr formasının müxtəlif mürəkkəb quruluşları I şəxsi çıxmaq şərtilə bütün şəxs paradiqmalarında çıxış edərək tabesiz və tabeli mürəkkəb strukturları yara bilir. Məs.: *İnsanlar dünya malına susamamalı, Tanrının verdiyinə qane olaraq yazşamalı, Tanrıya təpik atmamalıdırlar* (5, 71). Bu tabesiz mürəkkəb cümlə 3 tərkib hissədən ibarət olmaqla, ardıcılzamanlılıq məna əlaqəsi əsasında qurulmuşdur. Vahidlilik çaları kəskin şəkildə ifadəsini tapan bu tabesiz mürəkkəb cümlələrin ümumi semantikasında eyni zamanda az da olsa həm əmr, həm də arzu məzmunları da vardır, çünki "-ma, -mə" və "-malı, -məli" şəkilçiləri feil köklərinə qoşularaq işlədilməklə əmrin inkarlıq kateqoriyasını reallaşdırır. Obrazların daxili monoloqlarında əmr cümlələrinin həm sadə, həm də mürəkkəb strukturları zəncirvari şəkildə işlənərək emosional və ekspessivlik keyfiyyətləri yaratmağa xidmət göstərir. Məs: *Qoy sevsin, darıxsın, darıxdıqca mənə də həvəslənsin! Mən də dözüb bir müddət ondan qaçacağam, sınayım, görüm mənə olan sevgisi, lap istəyi, həvəsi ötəri deyil ki? Allah, mənə bu fikrimədə dözüm və səbr ver! Tofiq isə məni sevirsə, onu da da atəşləndir, lap elə həvəsdən doğan istəyini də mənə qarşı dözülməz dərəcədə gücləndir* (7, 204).

Birinci cümlə "qoy" ədatı ilə əmr məzmunu daşıyaraq tabesiz mürəkkəb cümlə strukturu yaratmış və "də" elementi cümləyə qüvvətləndirici məna çaları vermişdir. "Qoy" ədatı cümlənin başlanğıc hissəsində işlənərək ümumilikdə tabesiz mürəkkəb cümləyə təkid çaları da vermişdir. İkinci cümlə sual məzmunludur, dördüncü cümlədə Allahdan rica, tələb məzmunlu dözüm və səbr dilənilir, bu, sadə genişləndirilmiş cümlə modelində, sonuncu cümlə isə şərt budaq cümləsi modelində olub, budaq cümlə baş cümlədən əvvəl işlənmiş və baş cümləyə "-sə" şəkilçisi ilə bağlanmışdır. Budaq cümlə ünsiyyətdə olanlar üçün məlum olan şərti, baş cümlə isə həmin şərtin nə ilə nəticələnəcəyini bildirməyə xidmət göstərir.

Monoloji nitqdə fikri qarşısındakına təkidlə, həm də daha təsirli çatdırmaq məqsədilə əmr cümlələrinin şərt budaq cümləsi tiplərinə intensiv şəkildə rast gəlinir. Məs.: *Əgər Tofiqin hisslərinin sənə səmimi və təmiz olmasına inanmırsansa, sevgin uğrunda ürəyinin döyüntülərinin canlanması, xoşbəxtliyə gətirib çıxarması yolunda mübariz ol*! (7, 218); *Əgər sevdadan həlalik boşana bilmədiyinə görə mənimlə görüşmək istəmirsənsə, sevirsənsə onu əsas sayma, imkan ver*! (7, 221).

Bu nümunələrin hər ikisi analitik-sintetik şərt budaq cümləsi tipində olub, baş cümlə budaq cümləyə "əgər" köməkçi sözü və "-sa, -sə" şəkilçisi ilə bağalanmışdır. Ümumiyyətlə, Azərbaycan nəsrində monoloji yöndə analitik-sintetik şərt budaq cümləsinin işləklik intensivliyi daha çox özünü təzahür etdirir. Hər iki

misalda "-sa, -sə" şəkilçisi feili xəbərə artırılmış və baş cümlə budaq cümlədən əvvələ gəlmişdir.

Obrazların daxili nitqində – monoloji istiqamətdə anaforik təkrar növünün də əmr cümləsi şəklində işlədilməsi müşahidə olunur və bunlar da tabeli mürəkkəb strukturu kimi fəaliyyət göstərir. Məs.: ***Söz ver ki****, qızımı böyüdəcəksən! Söz ver! ...* ***Söz ver ki,*** *ona atalıq qayğısı göstərəcəksən* (7, 229).

Bu nümunələrdə əmr cümlələri anaforik təkrarlar vasitəsilə formalaşmış və hər iki cümlədə anaforik təkrar işlənən mövqedə budaq cümlə baş cümlədən sonra çıxış edərək ona "ki" köməkçi sözü ilə bağlanmışdır. Məqsəd budaq cümləsi modelində qurulmuş bu misallarda məqsəd budaq cümləsinin qəlibi – məqsəd zərfliyidir və budaq cümlə vasitəsilə izah edilir, konkretləşdirilir, yaxud da budaq cümlə birbaşa baş cümlənin xəbəri ilə əlaqələnərək baş cümlədəki işin, hərəkətin məqsədini bildirir. Cümlələri sadələşdirəndə də məqsəd zərfinin elementlərini əlavə edəndə də həmin sintaktik vahidlərin məqsəd budaq cümləsinin suallarına cavab verdiyini görürük: *Qızımı böyüdəcəyindən ötrü söz ver! Ona atalıq qayğısı göstərəcəyindən ötrü söz ver*! İstər mürəkkəb, istərsə də sadə strukturlarda xəbərlə ifadə olunan işin icrası gələcəyin üstünə atılır.

Monoloji nitqin əksər məqamlarında personajın daxili danışığında fikir əmr cümləsi ilə həm başlanğıc, həm də son pozisiyalarda işlənir və hər iki məqamda bədii fikirlər güclü ekspessivlik keyfiyyəti ilə təzahür edir. Məs.: ***İmkan ver ki,*** *görüşək!* ***İmkan ver ki,*** *heç olmasa sənə mənəvi dayaq olum* (7, 235). Bu misallarda da məqsəd budaq cümləsi "baş cümlə + budaq cümlə" modeli əsasında qurulmuş və "imkan ver ki" anoforik təkrar tipli cümlə vəzifəsində çıxış etmişdir. Hər iki nümunədə məqsəd zərfliyinin qəlib sözü (ona görə, çünki) buraxılmış vəziyyətdə olsa da, təsəvvürdə bərpa edilmək imkanlarına malikdir. Həmin qəlib sözü maddi şəkildə bərpa edə bilərik! "*İmkan ver ona görə görüşək: Sənə mənəvi dayaq olmaq üçün imkan ver, görüşək*".

Bütün istər sadə, istərsə də mürəkkəb strukturları ilə həm məqsəd zərfliyi, həm də məqsəd budaq cümləsi ifadə olunan iş və hərəkətin məqsədini bildirməyə xidmət göstərir.

**Nəticə.** Monoloji istiqamətdə əmr cümləsinin mürəkkəb strukturları obrazların daxili mənəviyyatı və xarakteri ilə müəyyənləşir. İntonasiya və feilin müəyyən formaları, köməkçi qəlib sözlər əmr cümlələrinin strukturunu genişləndirərək onları mürəkkəb modellər şəklinə də sala bilir və bunlar müxtəlif budaq cümlə tiplərini əhatə etməklə monoloji nitqin semantikasını və məzmununu daha da vüsətləndirir. Mürəkkəb quruluşdan olan əmr cümlələrinin əsasını bir-biri ilə məna və qrammatik cəhətdən bağlı sadə cümlə komponentləri təşkil etməklə monoloji nitqə rəngarəng məna çalarları bəxş edir.

**Ədəbiyyat**

1. Müasir Azərbaycan dili. Morfologiya, II cild, Bakı, "Elm", 1980, 510 s.
2. Eldar İsmayıl. "Səttaroğlu" (sənədli roman) "Azərbaycan ensiklopediyası" NPB, 1997, 400 s
3. Eyvazlı Fərman. Qaçaq Kərəm (roman), Bakı, "Yazıçı", 1986, 416 s.
4. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, "Maarif", 1977, 203 s.
5. İldırımoğlu Əli. Daş yağan gün (povest), Bakı, "Nurlan", 2011, 240 s.
6. Rəhimov M. Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi. Azərb.SSR EA nəşriyyatı, Bakı, 1965, 138 s.
7. Kazımov Tahir. Taleyin qisməti beləymiş yəqin (roman). IV kitab, Bakı, "Nurlan", 2010, 592 s.

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
**Rəyçi: prof.M.N.Hüseynova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**